# Ümumtəhsil məktəblərinin V-VIII siniflərində "Azərbaycan tarixinin tədrisində tolerantlığın formalaşdırılması" mövzusunun mahiyyəti

**Şəhla Rəcəb qızı Məmmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** shahlafuadfarid@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. M.M. Əmirov,
p.ü.f.d. D.M. Musayev,

**Açar söz:** tolerantlıq, müasir təlim, mahiyyət, məktəb, şagird, dərslik
**Ключевые слова:** толерантность, современное образование, сущность, школа, ученик, учебник, предмет
**Key words:** tolerance, modern education, essence, school, student, textbook

Tolerantlıq – digər inam və əqidələrə olduğu kimi yanaşma, onların varlığına dözümlü olma deməkdir.

İnsanlar zahirən fərqli olduqları kimi daxilən də duyğuda, düşüncədə, inancda, demək olar ki, hər bir sahədə bir-birindən fərqlənirlər, bu fərqləri aradan qaldıraraq bir insan tipi formalaşdırmaq mümkün deyildir. Bunun əvəzində müxtəliflikləri nəzərə alıb, onları münaqişəyə cəlb etmədən, bir yerdə yaşamaq yollarını araşdırmaq lazımdır. Daha açıq deyilsə, iki yol var: ya bir-birimizlə münaqişəli vəziyyətlərdə olmalı, dava, müharibə etməliyik, ya da bir-birimizi başa düşməli, bir-birimizi qəbul etməliyik, uyğunlaşmalıyıq. Tolerantlıq bu uyğunlaşma yolunu seçmək bacarığıdır.

Tədqiqatçılar arasında "tolerantlıq" termininin elmə gətirilməsi barəsində fikir ayrılığı vardır. Belə ki, pedaqoq M.A. Semaşko qeyd edirdi ki, ilk dəfə "tolerantlıq" anlayışını elmə XVIII əsrdə fransız filosofu, iqtisadçı və siyasi xadim Antuan Lui Klod Destyud de Trusi gətirmişdir. N.Q. Kapustinanın qənaətincə, "tolerantlıq" termini 1953-cü ildə ingilis immunoloqu Piter Brayan Medavar tərəfindən orqanizmin immun sisteminin köçürülmüş yad toxumalara "dözümlüyünü" göstərmək üçün daxil edilmişdir. Daha sonralar "tolerantlıq" anlayışı sosial və şəxsiyyətlərarası münasibətlər sahəsinə aid edildi. N.V. Kruqlovanın qeyd etdiyi kimi, tolerantlıq haqqında ilk ideyalar insan cəmiyyətinin inkişafı, hər şeydən əvvəl mədəni təkamülün əlaməti kimi meydana gələn skeptik fikirlərlə bağlıdır və dözümlülük din və vicdan problemləri ilə sıx əlaqədə nəzərdən keçirilirdi (1, s. 11-32).

Təhsilalanlarda, tolerant mövqeyin, tolerantlıq keyfiyyətinin formalaşdırılması sosial proseslərlə - ekstremizmin, aqressivliyin müxtəlif şəkildə təzahürü ilə, münaqişənin baş verdiyi regionların və gərginliyin, düşmənçiliyin genişlənməsi ilə, gənclərin sosial-mədəni həyat tərzinin dəyişməsi ilə səciyyəvidir. Həmin sosial təzahürlər istər-istəməz təhsilalanlara təsir edir.

Şagirdlərdə tolerantlığın formalaşdırılmasının qarşısında aşağıdakı əsas məqsədlər dayanır:

1. şagird öz şəxsiyyətinə dəyərli münasibətin formalaşdırılması, kommunikativ fəaliyyət vasitəsilə onun yaradıcı fəaliyyətinin inkişaf etdirilməsi;

2. əməkdaşlıq əsasında və tolerant şəxsiyyət olmaqda ətraf aləmlə qarşılıqlı münasibətləri qurmağa hazırlığın olması.

Həmin məqsədə çatmaq üçün bir sıra vəzifələrin reallaşması vacibdir:

1. şagirdin özünü yaradıcı ifadə etməsi;

2. təlim prosesində təhsilalanın şəxsiyyətinin özünürealizə etməsi məqsədilə şərait yaratmaq;

3. şagird qrupunda məktəblilərin möhkəm tellərlə bir-birinə bağlanmasına nail olmaq, onları etibarlılıq, qarşılıqlı yardım və bir-birinə hörmət əsasında birləşdirmək;

4. şagirdləri ümumbəşəri dəyərlərlə, mədəniyyətlərlə tanış etmək;

5. ailəyə qayğı hissi yaratmaq, ailə ənənələrinin qorunub saxlanmasına nail olmaq və s.

Ümumiyyətlə məktəblilərin tolerantlıq səviyyəsini inkişaf etdirib yüksəltmədən humanist cəmiyyəti formalaşdırmaq çətindir. Ümumi məktəblərdə təhsil illərində təşəkkül tapan tolerantlıq, gərginliyin azaldılmasının çox əhəmiyyətli amilidir (2, s. 148-203).

Tolerantlığın struktur məzmununa aşağıdakı komponentlər daxildir:

1) özünüqiymətləndirmə; 2) özünüdərketmə; 2) özünütənzim; 4) özünütəyin.

Onların məzmun dolğunluğu tolerantlığın funksiyalarının yerinə yetirilməsini şərtləndirir. Tolerantlıq bütün insanlara xasdır və şəxsiyyətin ayrılmaz xassəsi kimi özünü göstərir, müasir təhsilində qarşısında duran ən önəmli vəzifə heç şübhəsiz ki, idraki və tərbiyəvi cəhətdən tam şəkildə özünü dərk edən şəxsiyyət yetişdirməkdir. Ənənəvi təlimdən fərqli olaraq müasir təlimdə obyekt-subyekt münasibəti yox subyekt-subyekt əlaqəsi təmin olunur yəni şagirdə bir obyekt kimi yox fikirlərini ifadə edə bilən maraq və mənafeləri nəzərə alınan bir şəxsiyyət kimi yanaşılır.

Özünü düzgün qiymətləndirən şagird cəmiyyətdəki, rolunun, vəzifə və hüquqlarının nədən ibarət olduğunu dərk etməli və onlara düzgün əməl etməlidir. Özünüdərk - subyekt-subyekt qarşılıqlı əlaqəsində tolerantlığın əhəmiyyətini mühüm edir; özünütənzim-iradi keyfiyyətlərə əsaslanaraq, birgə fəaliyyətdə fərdin cəld və uğurlu sosiallaşmasını təmin edir; özünütəyin-mənəvi biliklərin, hisslərin və davranışın mənimsənilməsini təmin edir, tolerantlığın dəyərinin mənimsənilməsi kimi mənəvi idealın müəllim və digər şagirdlər və ən önəmlisi cəmiyyət tərəfindən qəbul edilməsini şərtləndirir (3, s. 91-93).

Yuxarıda qeyd olunanlara əsasən deyə bilərik ki, təhsilalanın adekvat şəkildə özünüqiymətləndirməsi ətraf aləmlə qarşılıqlı fəaliyyətdə sabit mövqe tutmaqda ona yardımçı olur; özünüdərk subyekt-subyekt qarşılıqlı münasibətlərində tolerantlığın rolunu artırır; özünütənzim iradi keyfiyyətlərə əsaslanaraq, birgə fəaliyyətdə fərdin sosiallaşmasını uğurlu edir; özünütəyin şagirdlərdə mənəvi biliklərə, mənəvi hisslərə və mənəvi davranış təcrübəsinə yiyələnmələrinə kömək göstərir; şagirdlərdə mənəvi ideala tələbat yaradır.

Təhsil müəsissələrinin  qarşısında duran mühüm vəzifələrdən biri də şagirdlərdə fənlər üzrə eyni zamanda tarix fənni üzrə dərin bilik verməklə, onlarda tarixə məhəbbət formalaşdırmaq və tarixi səriştəliliyi aşılamaqla yanaşı, onların tərbiyəsi və özünütərbiyəsi qayğısına qalmaqdan ibarətdir. Bu təxirəsalınmaz işlər sırasında şagirdlərdə tolerantlığın, başqa sözlə dözüm, hövsələ, təmkin və səbrin formalaşdırılması son dərəcə vacibdir.

Tarixə diqqət yetisək görərik ki, Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsidir.

Bu ənənənin kökləri tarixin dərinliklərinə gedib çıxır: Babil hökmdarı II Novuxodonosurun (e. ə. 586 il) Yerusəlimi zəbt etməsi nəticəsində talan olmuş İudeya çarlığından qaçan yəhudi köçkünləri Azərbaycan torpağında özlərinə sığınacaq tapmışlar. Tarixi mənbələrə əsasən, o vaxtlar Babildə 40 minə qədər əsir var idi.

Eramızın birinci yüzilliyinin ortalarında xristianlığın ilk ardıcılları Azərbaycana pənah gətirmiş və sonradan burada yaranan Alban aftokefal kilsəsinin əsasını qoymuşlar. İslamın Azərbaycana gəlişi ilə dini dözümlülük ənənələri daha da möhkəmlənmişdir. Müsəlman tolerantlığının əsasını Qurani-Kərimin surə və ayələri təşkil edir:

VII-VIII əsrlərdə müsəlmanlar yəhudilik, xristianlıq və zərdüştiliyin tərəfdarlarına qarşı ehtiram və dözümlülük göstərmişlər.

Tarix boyu Azərbaycanda yaşayan xalqlar dəfələrlə qüdrətli dövlətlərdən asılı vəziyyətə düşmüş və yaranmış şərait onları, dünya görüşlərindəki fərqlərə baxmayaraq, yaxınlaşmağa vadar etmişdir.

Sovet İttifaqının dağılması regionda dini dözümlülük ənənələri üçün əsl sınağa çevrildi. Bu proseslərin nəticəsində keçmiş müttəfiq respublikaların xalqları müstəqilliklə yanaşı əsl dini etiqad azadlığı da əldə etdilər. Azərbaycandakı mövcud tolerantlığın əsasları üçün ən böyük təhlükəni 1990-cı illərinin əvvəllərindən başlayaraq 30 ilə yaxın dövr ərzində minlərlə dinc sakinin ölümünə və bir milyondan çox soydaşımızın doğma yurdlarından didərgin düşməsinə səbəb olan erməni təcavüzü yaratmışdır. Azərbaycan-Ermənistan-Dağlıq Qarabağ münaqişəsi dini zəmində baş verməsə də, Ermənistanın dini lideri I Vazgen praktiki olaraq separatçı hərəkatı qızışdıran şəxslərdən biri olmuşdur.

Barışmaz erməni separatizminin ideoloqları hər imkandan istifadə edərək, beynəlxalq aləmdə belə bir mif təlqin etməyə çalışırdılar ki, güya Azərbaycandan “islam təhlükəsi” gözlənilir. Digər tərəfdən, Azərbaycanda anti-müharibə və hətta ermənipərəst meyllərin yayılması üçün bəzi qüvvələr respublikanın müsəlman əhalisinin xristianlaşdırılmasından istifadə edirdilər. Şübhəsiz ki, belə hərəkətlər dinlərarası dialoqun möhkəmlənməsinə xidmət etmirdi. Lakin bu hadisələr respublikadakı dini konfessiyalar arasında olan münasibətlərə həlledici mənfi təsir göstərə bilmədi (4, s. 55-74, 381, 450-453).

“İslam sivilizasiyası Qafqazda” mövzusunda Beynəlxalq Simpoziumda Azərbaycan Prezidenti Heydər Əliyev demişdir: “Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq İslam dəyərlərinin xüsusiyyətidir. Bu, tarix boyu Azərbaycanda da, Qafqazda da öz əksini tapıbdır. Azərbaycanda islam dini ilə yanaşı xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır” (5).

Ümumtəhsil müəssisələrində aparılan uğurlu islahatlar nəticəsində şagirdlərdə tolerant düşüncə inkişaf edir belə ki, hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət edilməli olduğu şagirdlərə hər tərəfli aşılanır.

Əgər ümumtəhsil məktəblərinin dərsliklərinə nəzər salsaq görərik ki, tolerantlıq ruhunda tərbiyənin əsası hələ ibtidai siniflərin həyat bilgisi və oxu dərslərində qoyulur. Bu isə “Azərbaycan tarixi” dərsliklərində tolerant dünyagörüşün davam etdirilmə üçün zəmin yaradır. Fikrimizi əsaslandırmaq üçün tədqiqat işində dərsliklərə müraciət etdik.

V sinfin “Azərbaycan tarixi” dərsliyinin 9-cu paraqrafında “Azərbaycanda dini inanclar” mövzusu öyrənən şagirdlər Azərbaycanda mövcud olmuş müxtəlif dinləri eyni zamanda onlara xidmət edənlərin birlikdə yaşamasını normal qəbul etməklə tolerant ruhda tərbiyə olunurlar.

Yaxud VI sinifdə mannalıların dirilik ağacına, müxtəlif tanrılara sitayiş etdiyini öyrənən şagird, Atropatena əhalisinin Kerifto məbədində yunan qəhrəmanı Heraklla tanış olur, həmçinin onların zərdüştliyə sitayiş etdiyini bilən şagird buna qeyri-adi reaksiya vermir bu özü dini dözümlülüyə nümunədir.

Bütpərəst albanların, Strabonun məlumatı əsasında yunan allahlarına sitayiş etdiyini öyrə-

nən şagirdlər tolerant ruhda tərbiyə olunduqları üçün bunları normal qarşılayır və sonrakı həyatlarında da bu tolerantlığı davam etdirirlər. Mövzuyla tanış olarkən Sasanilər dönəmində albanların zərdüştliyə xidmət etmədikdə, can vergisini ödədiyini, öyrənən şagirdlər öz mövqeyini ortaya qoyur, hətta bunun doğru olmadığını hər kəsin dininə hörmətlə yanaşmalı olduğunu bildirən şagirdlər belə var. Şübhəsiz ki, bu tarix fənninin tolerant mövqeyli şəxsiyyət yetişdirməsinin və müəllimin mövzunu necə məharətlə tədris etməsinin göstəricisidir.

Başqa bir nümunədə fikrimizi əsaslandırsaq, Urnayrın xristianlığı qəbul etməsi Azərbaycanda dini etiqadların birgə yaşayışının hələ o dövrdə də mövcud olduğunu şagirdlərə öyrədərək onlara tolerantlığın bizim soy-kökümüzdən gəldiyini mənimsətmək olar.

VII sinif "Azərbaycan tarixi" dərslərində artıq islamı Azərbaycana gətirən ərəb ağalığı dönəmində cizyə vergisinin müsəlman olmayanlardan alınması, kilsənin ilk vaxtlarda cizyədən azad olması müxtəlif dinlərə xidmət edənlərin birgə yaşamasının mümkünlüyünü təsdiq edən faktlardır.

VII siniflər XIII yüzillikdə bütpərəst monqolların XIV yüzillikdə müsəlmanlaşmasını Qazan xan tərəfindən islamın qəbul edilməsi, XV yüzillikdə isə 1461-ci ildə xristian ermənilərin Şərqi Anadoludan Azərbaycana - Üçkilsəyə Qaraqoyunlu Cahanşah tərəfindən gətirilməsini, VIII sinifdə "XVII əsrdə hind mədəniyyəti" mövzusunda Suraxanıda hind atəşpərəstlərinin məbədi ilə tanış olur və islamla yanaşı Səfəvi dönəmində digər dinlərin də ölkəmizdə mövcudluğunu və s. bu kimi mövzuları öyrənən təhsilalanlarda hər tərəfli şəkildə tolerantlığı onun müsbət cəhətlərini təlqin etmək mümkündür.

Nəticə olaraq qeyd etməliyik ki, V-VIII sinif təhsilalanlarında hər bir yaş dövründə cəmiyyətə lazımlı şəxsiyyət formalaşdırmaq üçün tariximizin özündə ehtiva etdiyi multukultural dəyərləri araşdırmaq, təhlil etmək zəruridir. Hər bir müəllim şagirdlərə tolerant düşüncələri aşılamalı və bu dəyərlər əsasında gənc nəsli müasir dünya siyasətinə uyğun eyni zamanda milli adət-ənənələrimizi də qorumaq şərti ilə hər tərəfli şəkildə tərbiyələndirməlidir.

**Məqalənin aktuallığı.** Tolerantlıq mədəni dialoqun aparılmasının müvəffəqiyyətini təmin edən və müxtəlif sosial-mədəni qruplarla, yaxud onların nümayəndələri ilə mədəniyyətlərarası münaqişələrdən qaçmağın müvəffəqiyyətini təmin edən şəxsiyyətin əxlaqi keyfiyyəti kimi müəyyən olunur. Şagirdlərdə, o cümlədən tələbələrdə tolerantlığın tərbiyə olunması sosial proseslərlə ekstremizmin, aqressivliyin müxtəlif növ səviyyələri, münaqişə zonalarının və münaqişə vəziyyətinin genişlənməsi, böyüyən nəslin sosial-mədəni həyatının dəyişməsi ilə şərtlənir. Bu sosial təzahürlər şagirdlərə öz təsirini göstərir, ona görə də bu sahədə daha çox araşdırmaların aparılması zəruridir. Məqalənin də aktuallığı məhz bu kimi zəruri məsələlərdən söhbət açılması ilə bağlıdır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenillik ondan ibarətdir ki, məqalədə "tolerantlıq" termininin elmə gətirilməsi ilə bağlı müxtəlif alimlərin əsərlərindən nümunələr göstərilir, şagirdlərdə tolerantlığın formalaşdırılmasının əsas məqsədləri açıqlanır və onun struktur məzmununa komponentlər daxil olan komponentlər təhlil edilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əmirəliyeva İ. Ali məktəb tələbələrində tolerantlığın formalaşdırılması. Bakı, 2015.
2. Abbasov A.N. Pedaqogika: orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mürtəcim, 2013.
3. Əliyeva P.B., Qurbanova L. Məktəblilərin tolerant mədəniyyətinin inkişafı. "Təhsil

müəsissələrində tərbiyə işinin təşkilinin nəzəri və praktik problemləri”. Bakı, Mütərcim, 2011.
4. Qəniyev H. Azərbaycan tarixi (Ən qədim zamanlardan XXI əsrin ilk onilliklərinədək). Bakı, 2019.
5. “İslam sivilzasiyası Qafqazda”. I Beynəlxalq simpozium. Bakı, 1998.
6. Ümumtəhsil məktəbləri üçün “Azərbaycan tarixi” dərs vəsaitləri V-VIII siniflər. Bakı, 2017-2020.

**Ш.Р. Мамедова**

## Сущность темы «Формирование толерантности в обучении истории Азербайджана» в V-VIII классах общеобразовательных школ

### Резюме

Гуманистическое общество можно сформировать, развивая уровень толерантности личности. Толерантность, которая начинает формироваться в школьные годы, является важным условием снижения социальной напряженности. Он определяется как нравственное качество личности, обеспечивающее успешность ведения культурного диалога и успешность избегания межкультурных конфликтов с разными социокультурными группами или их представителями. Воспитание толерантности у студентов, в том числе студенческой, обусловлено социальными процессами и различной степенью экстремизма, агрессии, расширением конфликтных зон и конфликтных ситуаций, изменениями в социокультурной жизни подрастающего поколения. Эти социальные явления оказывают влияние на студентов, поэтому необходимы дополнительные исследования в этой области. В статье также говорится о таких необходимых вопросах.

**Sh.R. Mammadova**

## The essence of the topic “Formation of tolerance in teaching the history of Azerbaijan” in grades V-VIII of general education schools

### Summary

It is possible to form a humanist society by developing the level of tolerance of the individual. Tolerance, which begins to form in school years, is an important condition for reducing social tension. It is defined as the moral quality of personality that ensures the success of conducting cultural dialogue and the success of avoiding intercultural conflicts with different socio-cultural groups or their representatives. Cultivation of tolerance in students, including students, is conditioned by social processes and various levels of extremism, aggression, expansion of conflict zones and conflict situations, changes in the socio-cultural life of the growing generation. These social phenomena have an impact on students, so more research is needed in this area. The article also talks about such necessary issues.

**Redaksiyaya daxil olub:** 19.07.2022